# NƏSİMİ SİMFONİYASI



■ İslam Sadıq

## BİRİNCİ NƏĞMƏ

Bilirdin ki, bir gün sənin
Həm əlindən, həm dilindən,
Həm özündən, həm sözündən
Bezib cana doyacaqlar.
Səni gözdən salmaq üçün,
Öz yerləri bir az sərin,
Bir az isti olmaq üçün
Adını da gah Allahsız,
Gah imansız qoyacaqlar.
Hələ bunlar harasıdır?!
Sənin elə dili sözlü,
Sənin elə diri gözlü
Dərini də soyacaqlar.
Onda özün bilə-bilə,
Onda üzün gülə-gülə,
Çıxıb getdin hələdə sən.
Bilirdin ki, ustadın var,
Sən də ona tələbəsən.
Yoxsa getdin hələdə ki,
Görüb qanlı köynəyini,
Sızıltını, göynəyini,
Barı qara bağlamasın,
Sinəsini dağlamasın.
Üz cırmasın, saç yolmasın,
Hönkür-hönkür ağlamasın
Sənin doğma anan Vətən!
Sənə candan yanan Vətən!
Onda özün tələbəydin,
İndi özün ustadısan,
Ustadısan çox şeylərin.
Yuxarıda yeddi qatın,
Aşağıda yeddi qatın.
Bu yerlərin, bu göylərin,
Quzeylərin, güneylərin
Ustadısan şimşək kimi.
Bir yol dolub yüz çaxmağın,
Ölüm adlı mələyin də
Gözlərinə düz baxmağın,
Söz deməyin də ustadısan.
Sözü yalan-palanlardan
Arıtlayıb buğda kimi,
Düz deməyin ustadısan,
Qaranlığı öz nuruna
Bükənəyin də ustadısan.
Zirvələri ayağına
Çəkməyin də ustadısan.

## İKİNCİ NƏĞMƏ

"Haqq mənəm" dedin bir yol
Söylədin: Haqq məndədi!
Onda bilmirdin bəyəm
Bu dünya nə gündədi?!
Bir söz üstdə dərini
Qarış-qarış soydular.
Haqqı soyulan görüb
İnsanlar əl üzdülər,
Haqdan da, haqlıdan da
Yamanca soyudular.
Səndən sonra sənin tək
"Haqq mənəm! Haqq məndədi"
Deyən olmadı daha,
Bir dəfə haqq deyənin
Dərisini soydular,
Haqdan üz döndərənlər
Özləri haqsız qalıb,
Haqqı da tək qoydular.
O günü zərrə-zərrə,
Çoxlarının içində
Söndü haqqın işığı.
Susdu adı Nəsimi
Olan, ya da olmayan
Haqqın neçə aşığı.
Haqsızlar haqqı soyub,
Adını haqsız qoyub.
Haqqa qələm çəkdilər.
Bu işdə necə qoçaq,
Necə də zirəkdilər.
Dodaqlar qıfıllandı,
Mısmırıqlar sallandı.
Ağzına sumük aldı,
Hamı birdən lallandı.
Susduqca susanların
Ağızları ballandı.
Hamı susandan sonra,
Doğrunu addım-addım
Oğru busandan sonra
Bir adamı saymağa
Nə varıydı o zaman.
Kür adamı saymağa,
Pir adamı saymağa
Nə varıydı o zaman.
Xəyalım dolandıqca
Bu gündən o günədək,
O gündən bu günədək,
Bir işıq uzandıqca
İslamdan Nəsimiyə,
Nəsimidən İslama.
Başıma gəlməyənlər
Qəlbimə dama-dama.
İçim göynəyir yaman.
Dünya boşmu qalmışdı,
Bir deyən tapılmadı:
Bəs onun haqqı hanı?
Haqsızlar haqq deyənin
Soyduqca dərisini,
Ağzına almadımı
Haqsızlıq bu dünyanı?!
Haqlının dərisini
Haqsıza soya-soya,
Dünyanın adı qaldı
Haqsız və yalan dünya!
Bəlkə də o vaxtdan
Sən olan o dünyanın
Adı da haqq dünyadı
Sənin dünyan adını
Bir kəlmə sözdən alıb.
Bizim dünya adını
Bax belə bizdən alıb.

## ÜÇÜNCÜ NƏĞMƏ

Əl açanın, qol açanın,
Yerdən göyə yol açanın
Əl-qolunu isti-isti
Yığışdırmaq istədilər.
Yerə-göyə sığmayanı
Özü boyda dar məzara
Sığışdırmaq istədilər
İki dünya dedin, şair,
Yer toxudu bu sözləri
Yaddaşına ilmə-ilmə
Göy oxudu bu sözləri
Dönə-dönə, kəlmə-kəlmə.
İki dünya dedin, şair,
Bu yer kimi, bu göy kimi
Min sirr vardı sözlərin də
Özün ona sığmadıqca,
Sözün ona sığmadıqca
Dünya bircə ovuc oldu
Dar gözlərin gözündə
Bircə sözlə bu dünyanı
Çoxlarına dar elədin.
Yayın qara bişənində
Başlarına qar elədin.
Sığışdırdın öz canında
Necə iki cahanı sən?!
Gündüz iki cahanı sən,
Gecə iki cahanı sən?!
İki dünya dedin, şair,
Biri bizim dünyamızdı,
Bəs birini hardan aldın?!
İki dünya deyə-deyə
Bu dünyanı dərdə saldın.
İki dünya dedin, şair,
Onu yermi pıçıldadı,
Ya göydənmi səda gəldi?!
İki dünya deyənlərin
Ağzı təzə dada gəldi.
Bircə kəlmə sözdən ötrü,
Başına min qada gəldi.
Gözlər necə qamaşmazdı,
Gördülər ki, nur saçırsan.
Gecən aydın, günün aydın.
Bu dünyada sən özün də
Dünya boyda bir dünyaydın!

## DÖRDÜNCÜ NƏĞMƏ

Üzünü görmədim bircə yol sənin,
Hardan bilim necə adam olubsan?!
Sözünü görmədim bircə yol sənin
Görüm gündüz, gecə adam olubsan?!

Üz-gözdən bəlkə də başqa-başqayıq,
Ürəkdən lap sənə oxşayıram mən,
Öz ömrümdən başqa indi bir az ola
Bir Nəsimi ömrü yaşayıram mən.

O başından sənsən,
Bu başında mən,
Kəsib aramızı düz altı yüz il,
"Ənəlhəq" kəlməsi çıxıb dilindən
Yol gəlib, yol gəlib söz altı yüz il

Sən göy adamıydın,
Yer adamı yox,
Göylərdən gəlirdi avazın sənin,
Yer havası üstə köklənməmişdi
Nə ürəyin sənin, nə sazın sənin

Haqqın harasıydı çaldığın hara,
Alışa bilmədi qulaqlar ona,
Nəfəsin o qədər duruydu, duru
Həsəd aparırdı bulaqlar ona.

Səni duymadılar,
Duyammadılar,
Ucanla sürünən çətin yol gedər.
Bəşər sürünürdü torpaqda hələ,
Xəyalın sonsuzdu hələ bu göylər qədər.

Görməyə-görməyə səni bircə yol,
Ovcumun içi tək tanıyıram mən.
Tanıya-tanıya bilirəm kimsən.
Səni sayanları qınayıram mən.
Səni kökləyən barmaqlar
Mənidəmi kökləmişdi.
Bir gün məni göyərdəcək
Dəni dəmi kökləmişdi.
Başım üstündə dumanı,
Çəni dəmi kökləmişdi.

Əhəlhəq kökü üstündə
Kökləyib çaldığın sazın
Bəlkə bircə pərdəsiyəm,
Ya da ikicə simiyəm.

*Davamı səhifə 23-də*

*(Əvvəli səhifə 22-də)*

Məni necə duya bilər
Axı səni duymayanlar?!
Bilsə, bilsə dünya bilər.
Sən də, mən də bir az sirli,
Bir azca da sirr adamıq!

## BEŞİNCİ NƏĞMƏ

Sən Tanrını tanıyırdın,
Tanrı səni tanıyırdı.
Bəs Tanrını tanımıyan
Səni niyə qınayırdı?!

Tanrı mənəm deyə-deyə
Çaşdırırdın nadanları.
Görmürdünmü qorxusundan
Sarısını udanları.

Sən deyirdin: baxın görün
Haqqınızı yeyənləri,
Ona görə soyurdular
"Haqq məndədir" deyənləri.

Duru suyu bulandırıb
Orda balıq tuturdular.
Bu suları duruldanı
Balıq kimi udurdular.

Oğrunun da, quldurun da
Başına tac qoyurdular.
Günəş kimi nur saçanın
Dərisini soyurdular.

"Gecə qara, cücə qara"
Deyib ova çıxırdılar.
Çaqqalların günahını
Qurdun üstə yıxırdılar.

Gözlərini qamaşdıran
İşıq olunca qorxurdular.
Ona görə dünyamızı
Qaranlıqla yoğurdular.

Səni soyan nadanıydı,
İşıq nədi o nə qanır?!
Çaşmışdı ki, gün batanda
Dünya niyə işıqlanır?!

## ALTINCI NƏĞMƏ

Cəlladın üzündə
İşıq yoxdu, sönüb.
Özü də qupquru
Bir kötüyə dönüb.
Yoxsa susub zaman,
Yoxsa vaxt dayanıb.
Günəş də o zaman
Qırmızı olmayıb,
O da Nəsiminin
Qanıyla boyanıb.

## YEDDİNCİ NƏĞMƏ

Badamlarda badam iyi qalmayıb,
Gül açmışam, şadam iyi qalmayıb,
Adamlarda adam iyi qalmayıb,
Qoxu-qoxu soyulanı görmədin.

Daşa dəyib çiliklǝndi umudlar.
Gözlərimdən qaçan yuxum - buludlar.
Yuxu-yuxu soyulanı görmədin.

Koroğlunun nərəsi var qanımda,
Qorxaqları saxlamaram yanımda,
Qorxu-qorxu soyulanı görmədin.

Yalan-yanlış duyulmağa nə var ki,
İki gözü oyulmağa nə var ki,
Lap dərisi soyulmağa nə var ki,
Duyğu-duyğu soyulanı görmədin.

**18 fevral-16 mart 2019**
**Novxanı**